


# BAYAT

№ 53 (634)







ƏBÜLFƏZ
ÜLVİ


### QORUYUN QIRMIZI RƏNGİ

İnsanlar, qoruyun qırmızı rəngi,
Şəhid qanlarının rəmzidir, bu rəng.
İnsanlar, qoruyun qırmızı rəngi,
Qələbə, azadlıq əzmidir bu rəng.

El anır sükutla, şəhid hər kəsi,
Sükutla şəhidə sevgi toxunur.
Baxma eşidilmir sükutun səsi,
Şəhid nəğmələri belə oxunur.

Bu rəng, cansızı da gətirir cana,
Elə, bu rənglə də vurur könüllər.
Boş deyil, şəhidə hörmətdən yana,
Qırmızı açılır, qırmızı güllər.

Onlar əziz tutdu şanı, şərəfi,
Qoymadı arzumuz sına, çat verə.
Günəş qürub etmir, axşam tərəfi,
Gedir şəhidlərə salavat verə.

Məni sevin deyir qırmızı, özü,
Bu rəng başqa cürə daha yozulmaz.
Bu rənglə yazılıb istiqlal sözü,
Bu rənglə yazılan yazı pozulmaz.

Gözlərin suyunda sirr yaşayır, sirr,
Hər şey gözəl olur öz normasında,
Bu yaş, yaş deyildir nisgilimizdir,
Çıxır canımızdan su formasında.

Şəhidin qanından haqq yaranır, haqq,
Buna nail olur nahaqla cənglə.
Sən hələ hikmətə, möcüzəyə bax.
Ağ gün qazanılır, qırmızı rənglə.

### GEDİM

Qocalmışam, bu, hər kəsin haqqıdır,
Ruhum, məni bir yol eylə "maç" gedim.
Bu dünyayla vidalaşmaq vaxtıdır,
Ulu Tanrım, aç yolumu, aç gedim.

Tale qara gətirməyib təbimə,
Saç ağarıb, pis gəlməsin qəlbimə,
Bu yönümdə duaçıyam Rəbbimə,
Qoymayıbdı məni qara saç gedim.

Toplanıbdı qohum, qardaş, tanış, yar,
İçlərində nisgil, vəfa, etibar,
Sanki elə məhəbbətlə baxırlar,
Qoymasınlar məhəbbətdən ac gedim.

Eybim yoxdur, ömrü elə sürmüşəm,
Deyən olub insan deyil, dürrmüşəm,
Bu dünyada çox qovdu-qaç görmüşəm,
Haqq dünyası qoymaz qovdu-qaç gedim.

O dünyamın özü deyir buyur ki,
Ağlamıram, bunu hamı duyur ki,
Göz yaşları məni belə yuyur ki,
Yarandığım pak torpağa, pak geddim.

### XOCALIM

Gəlirik üstündən məhv edək çəni,
Yaşa, mərd dayandın yaşa, Xocalım.
Əbədi edəcək boran tərk səni,
Xalqım verməz yurdun qışa, Xocalım.

Bilmirəm fikrimi söyləyim necə,
Sənsiz olmamışıq bir gün, bir gecə,
Qoymarıq bir qarış üstündən keçə,
Nisgil dönsə belə quşa, Xocalım.

Sanma əsirlikdə kiçilir adın,
Sevən ürəklərə əkilir adın,
Gör necə alisən, çəkilir adın,
Vətən kəlməsiylə qoşa, Xocalım.

Bilirəm gözün çox burnu dik görüb,
Ürəyin intizar, çiynin yük görüb,
Sanki insanlarda biveclik görüb,
Etmisən gileyi daşa XocalIm.

Məqamdır mərd ordum özün tanıda,
Qoymaz yerdə qala şəhid qanı da,
Elə gün gələcək Yeravanı da,
İrəvan verəcək xışa, Xocalım.

Vaxt çatıb, müəmma çözüləcəkdir,
Qəlb üzən, boynundan üzüləcəkdir,
Xoşbəxtlik üzündən süzüləcəkdir,
Dönüb sevinc adılı yaşa, Xocalım.

Daha günəşinin zərrəsi sönməz,
Sanma zirvə enən, zirvəyə dönməz,
Başın bir qarış da aşağı enməz,
Qalxmısan sən elə başa, Xocalım.

### BAĞLIDIR

Şeir istəyirsən məndən, ay çiçək,
Onu ki, yazmağım sənə bağlıdır.
Bu yükü birlikdə, birgə gəl çəkək,
Sənə açıq sinəm, kinə bağlıdır.

Elə gül, mehrimi bələyim sənə,
Təb ver misraları ələyim sənə,
Mənim arzularım, diləyim sənə,
Səninki imana, dinə bağlıdır.

Şirinsiz dağ, qaya çapmaq çətindir,
Şirinlə külücdən qopmaq çətindir,
Tənliksiz məchulu tapmaq, çətindir,
Mənim söz tənliyim, tənə bağlıdır.

Sanma şeir yazmaq, tək huşa bağlı,
Qaş gözə bağlıdır, göz qaşa bağlı,
Saçıma tökülən dən yaşa bağlı,
Yaşım saçımdakı dənə bağlıdır.

Daim sazımdasan, könül sazımda,
Daim baş roldasan, hər bir yazımda,
Deyirsən şeir yaz, yazdır, yazım da,
Təkcə şeir yazmaq mənə bağlıdır?

### MƏN SƏNƏ BAXANDA...

Gözümdə, gözünə giley yaratma,
Bu giley yaradar həsrət yarası.
Amandır, qəm verib, qanı qaraltma,
Bəxti də qaraldır, qanın qarası.

Gözün hikmətini qavramır şüur,
Bəzən qəm, bəzən də sevinc əkirlər.
Elə kirpiklərin fərağat durur,
Elə bil əsgəri xidmət keçirlər.

Yağdırma üstümə yağışlarını,
Yağışla bülbül də çəməndən qaçır.
Elə bil qovan var baxışlarını,
Mən ona baxıram, o, məndən qaçır.

Elə bax, məhv eylə gözümün dağın,
Dönsün məhəbbətə qınağın sənin.
Güləndə gül kimi açır yanağın,
Gül, elə gül qalsın yanağın sənin.

Əksimi gözündə əzizlə, sıxma,
Ürəyim tab etməz, üzülər axı.
Mən sənə baxanda, sən yerə baxma,
Salarsan əksimi əzilər axı.

### GÖTÜR

Sən də qoruyursan, mən də əhdimi,
Nə olar başımı dizinə götür.
Çalış əyilməyə qoyma qəddimi,
Düzgün al canımı, düzünə götür.

Mən səni qoruyum, sən məni qoru,
Ağıldan qabağa çəkməyək zoru,
Qoyma israf olsun sevgimin nuru,
Onu üzdən salma, üzünə götür.

Heç vaxt haqq yolundan, haqsız sapmıram,
Mən dağı ovuram, qaya çapmıram,
Çoxdan axtarıram, bir iş tapmıram,
Keşik çəkmək üçün nazına, götür.

Yaşaram, söyləsən yaşa dumanda,
Tərslik yaratmaram bir an imanda,
Barı mən də səndən vüsal umanda,
Iki əlini də gözünə götür.

Fəqət sev Ülvini, edincə dəli,
Insafla bölüşək gəl ömür ləli,
Mən yüz il yaşayım, sən iki əlli,
Hansını çox bilsən özünə götür.

### MƏNİM
### (YARIZARAFAT)

Demə, bu rastlsşma deyilmiş əbəs,
Həkk oldu adıma, sanıma mənim.
Ömrümdə bir dəfə görmədiyim kəs,
Çevrildi bir anda canıma mənim.

O, oldu pərvanə, mən döndüm şama,
Kaş birgə yetərdik arzuya, kama,
Hər qan düşməsə də, qan qruppama,
Bu can, özü hopdu qanıma mənim.

Sanki xoş gəlirdi sözü günəşə,
Baxıb göz vururdu gözü, günəşə,
Bəlkə bənzədirdi üzün günəşə,
Nur səpsin, sökülən danıma mənim.

Bu yoldan əl çəkməz daha inadım,
Kiminə qınandım, kimi sınadım,
Ələsgər babam tək sınıb qanadım,
Kaş ki, düşməyəydi yanıma mənim.

Ülviyəm, bu eşqlə açıram çiçək,
Belə sevənləri aylrmaz fələk,
Bir onu bilmirəm, nə söyləyəcək,
Dilim evimdəki xanıma mənim.

### YOLA

Mən olan qəlbində şübhə, şək də var,
Bu yolla tez çıxar şər fələk yola.
Şübhəylə tez sönür, axı etibar,
Çıxar şübhələri, inam ək yola.

Baxdığın yollarda duman, çən gedir,
Gözünü zilləmə, göz əldən gedir,
Bilmirəm, yollardan ya zəhlən gedir,
Ya həddən çox edir gözün ərk, yola.

Anla ki, yol azmaq yoxdur qanımda,
Sənsən sabahım da, sənsən danım da,
Belə şəkk edincə, dayan yanımda,
Yol qoyma çıxmağa məni tək, yola.

Gəl inam yolundan düşməyək qaçaq,
Mənə sevgi göndər sən qucaq-qucaq,
A canım, onsuz da ayaqlanacaq,
İnamsız tökülən şübhə, şəkk yola.

Ülvinin könlünə sən saldın bahar,
Qəmim qəlb qanımla eyləyir nahar,
Qəlbindən ya şəkki, ya məni çıxar,
Qorxuram birlikdə getməyək yola.